**Abşeron yarımadasında təbii daş yataqlarının səmərəli istifadəsi və inkişafı Dövlət Proqramının (2003-2006-cı illər) təsdiq edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Ölkənin tikinti materialları ehtiyatlarından, o cümlədən Abşeron yarımadasında yerləşən təbii daş yataqlarından istifadənin səmərəsini artırmaq və bu sahənin inkişafını təmin etmək məqsədi ilə qərara alıram:

1. Abşeron yarımadasında təbii daş yataqlarının səmərəli istifadəsi və inkişafı Dövlət Proqramı (2003-2006-cı illər) təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**
**Bakı şəhəri, 13 iyun 2003-cü il**
**N 1242**